# Qlobal dəstək, yüksək qiymət



**"Təsis ediləndən bəri ilk dəfədir ki, "Zayed İnsan Qardaşlığı Mükafatı" tam təyinatı üzrə verilir. Çünki 2019-cu ildə təsis edilən bu mükafat həmin ilin fevralında Əbu-Dabidə Papa Fransisk və Əl-Əzhərin Şeyxi Əhməd əl-Tayyibin imzaladıqları "İnsan Qardaşlığı Sənədi"nə əsaslanır. Yəni bu, dinlərarası barış sənədi idi".**

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Sahib Alıyev deyib. O bildirib ki, Azərbaycanla Ermənistan arasında münaqişə heç də dini zəmində baş verməyib, burada təcavüzdən söhbət gedir, amma xüsusilə Qərbdə buna həm də sivilizasiyalararası qarşıdurma prizmasından yanaşıldığı heç də sirr deyil. Ona görə də islamın savaş yox, barış dini olduğunu özündə təcəssüm etdirən "Zayed İnsan Qardaşlığı Mükafatı"nın Azərbaycan Prezidentinə verilməsi bunun həm də əməldə təsdiqidir.

Deputat qeyd edib ki, torpaqlarımızda işğal altında olduğu dövrdə böyük dağıntılar, vəhşiliklər törədilməsinə baxmayaraq, Azərbaycan dövləti ona edilənləri təkrarlamadı: "Halbuki Azərbaycanın buna gücü də var idi, əsası da. Ancaq qalib Azərbaycan böyüklük göstərdi və özü sülh təşəbbüsünü irəli sürdü. Bu mükafat isə, birincisi, həmin təşəbbüsə verilən qiymətdir. İkincisi, müharibəni bitirən tərəfin Qarabağ sonrası prosesləri intiqam yox, əməkdaşlıq müstəvisinə daşıdığını təsdiqləyir, yəni Azərbaycanın regional sabitlik aktoru obrazını gücləndirir. Üçüncüsü, ilk növbədə, Körfəz ölkələrinin investorları üçün bu, bir növ zəmanət sertifikatı rolunu oynayır ki, artıq münaqişə bitib və yenisi gözlənilmir. Ermənistan üçün isə bu mükafat "sən uduzsan da, masada yox, masa arxasındasan" anlamı daşıyır. Hay toplumuna "sülh heç də zəiflik demək deyil" narrativi aşılayır və məğlubiyyət travmasını yumşaldır. İstərdik ki, qarşı tərəf bütün bunları düzgün dəyərləndirsin və doğru nəticə çıxarsın".

S.Alıyev vurğulayıb ki, "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimi zamanı öz videotəbriklərini göndərən liderlərin arasında Ermənistanın xilaskar gözündə gördüyü ölkələrin heç bir təmsilçisinin olmaması da düşündürücüdür. Bu baxımdan, ən çox canfəşanlıq edən, 8 avqust Vaşinqton anlaşmasından sonra sözdə guya əldə olunan razılaşmanı dəstəklədiyini bildirən Fransanın parlamentinin aşağı palatası niyə məhz mükafat verilən gün iki ölkə arasında normallaşma prosesinə zərbə vurmaq məqsədi daşıyan növbəti qətnaməni təsdiqlədi?

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2026.- 7 fevral (№24).- S.12.